

**Elşən İBRAHİMOV,**
*iqtisad elmləri namizədi*

# Dövlətin iqtisadiyyatı tənzimləməsi və stimullaşdırmasının zəruriliyi və əsas istiqamətləri

***Araşdırmalar göstərir ki, bazar iqtisadiyyatı sosial-iqtisadi proseslərin dövlətin tabeliyindən çıxarılmasını nəzərdə tutsa da, dövlət mikro və makro iqtisadi səviyyədə bu proseslərin tənzimlənməsindən tamamilə kənarlaşdırılmamalıdır. Bütün dövrlərdə dövlətin iqtisadi inkişafda və hər hansı bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində rolu böyük olmuşdur. Bu baxımdan, dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və onun hüdudlarının gözlənilməsi məsələsi başlıca problemlərdən biridir.***

Bəllidir ki, tarixən sosial-iqtisadi proseslərin idarə olunması və tənzimlənməsinin formalşmış iki əsas tipi mövcud olmuşdur: onlardan biri mərkəzləşdirilmiş planlaşdırma və idarəetməyə əsaslanan inzibati-amirlik sistemi, digəri isə iqtisadi üsullara əsaslanan bazar iqtisadiyyatı sistemidir. Ölkəmizdə həyata keçirilən əsaslı iqtisadi dəyişikliklərin əsas məzmunu da məhz inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid təşkil etmişdir. Dövlətin həyata keçirdiyi iqtisadi siyasət və apardığı islahatlar da məhz bu məsələnin reallaşdırılmasına xidmət etmişdir.

Tarixdən məlum olduğu kimi, 1930-cu illərə qədər klassik bazar iqtisadiyyatı, iqtisadiyyata hər hansı dövlət müdaxiləsini tamamilə inkar edirdi. Çünki mövcud iqtisadi qanunların fəaliyyəti real iqtisadi vəziyyətlə o qədər üst-üstə düşürdü ki, ona hər hansı kənar müdaxiləyə yer qalmırdı. Lakin təcrübə göstərdi ki, əgər dövlət bu problemlərin həllinə müdaxilə etməzsə, azad bazar sistemi uzun müddət böhran vəziyyətində qala bilər. Belə ki, 1929-1933-cü illərin dünya iqtisadi böhranı bazar iqtisadiyyatının tənzimlənməsinin klassik istiqamətlərinin bir çox müddəalarının səmərəsizliyini əyani surətdə sübuta yetirdi. Dövlət ölkəni böhrandan çıxarmaq və bütövlükdə iqtisadi sistemin özünün mövcudluğunu qorumaq məqsədilə güclü və sərt tənzimləmə tədbirlərini tətbiq etməyə məcbur oldu. Məhz belə bir şəraitdə 30-cu illərin sosial-iqtisadi reallıqlarına əsaslanaraq meydana çıxan C.Keyns nəzəriyyəsində ilk dəfə olaraq bazar iqtisadiyyatı şəraitində cəmiyyətin iqtisadi həyatına dövlətin müda-



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

xiləsinin konseptual nəzəri əsasları işlənib hazırlandı. Belə ki, C.Keyns “Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi” əsərində klassik və neoklassik təlimlərdən əsaslı surətdə fərqli olaraq sübut etdi ki, dövlət tələb səviyyəsinə təsir göstərməklə bütünlüklə iqtisadiyyatı tənzimləyə bilər. İqtisadiyyatın tənzimlənməsinin bu modeli, hər şeydən əvvəl, tələbin idarə olunmasında dövlət tənzimlənməsi ilə bazar mexanizminin vəhdətinə əsaslanır. C.Keyns belə hesab edirdi ki, cəmiyyətdə iqtisadi inkişafı təmin etmək üçün tələbi formalaşdıran və milli gəliri artıran amillərə təsir göstərmək kifayətdir. Bu məqsədlə milli gəlirin artımı şəraitində tam məşğulluğu təmin etmək üçün istehlak, investisiya və məşğulluq arasındakı qarşılıqlı funksional asılılığı aşkara çıxarmaq lazımdır. Bu ideyanı reallaşdırmaq üçün gəlirlər, istehlak, yığım, istehsalın miqyası, investisiya kimi makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqəsini də nəzərə almaq lazımdır. Həmçinin, Keyns belə nəticəyə gəlmişdir ki, səmərəli tələbi və tam məşğulluğu təmin etmək üçün dövlət fəal büdcə-maliyyə siyasəti həyata keçirməlidir. Ümumiyyətlə, iqtisadi ədəbiyyatlarda dövlət tənzimlənməsinin Keyns modeli əsasən aşağıdakı istiqamətlərdə ümumiləşdirilmişdir:

- dövlət büdcəsi vasitəsilə milli gəlirin xeyli hissəsinin yenidən bölüşdürülməsinə nail olmaq;
- dövlət və qarışıq müəssisələrin yaradılması hesabına geniş formada sahibkarlığın dövlət bölməsinin yaradılması;
- iqtisadi mühiti sabitləşdirmək, dövri enib-qalxmaları yumşaltmaq, milli məhsulun yüksək artım sürətinə nail olmaq və məşğulluğun səmərəli səviyyəsini təmin etmək üçün büdcə, maliyyə-kredit tənzimlənməsindən geniş istifadə olunması.

XX əsrin 60-cı illərinin ortalarında isə iki dünya sistemi, yəni kapitalist (bazar iqtisadiyyatı) dünyası ilə sosialist sistemi arasında mübarizənin güclənməsi Qərb ölkələrini bazar iqtisadiyyatının sosial təyinatını gücləndirməyə məcbur etdi. Həmin dövrdəki iqtisadçıların fikrini nəzərə alaraq, tənəzzülə uğrayan kapitalizm sistemini xilas etmək üçün dövlət bazar iqtisadiyyatı sisteminə sosializmin iki başlıca prinsipini, yəni sosial ədalət və sosial təminatı geniş tətbiq etməyə başladı. Elə bunun nəticəsidir ki, həmin mübarizədə bazar iqtisadiyyatı sistemi qalib çıxaraq, demək olar ki, bu gün dünyada hökmran bir sistemə çevrilmişdir. Bütün bu proseslərin təsiri altında ayrı-ayrı dövrlərdə Keyns nəzəriyyəsi modifikasiyaya uğramış və tədricən onun əsasında dövlət tənzimlənməsinin yeni bir istiqaməti, yəni yeni keynsçilik meydana gəlmişdir. Yeni keynsçilik məktəbinin başlıca nümayəndələri P.Samuelson, P.Soloy, L.Kleyn, F.Modelyani və digərləri iqtisadi proseslərə dövlətin daha fəal müdaxiləsini tətbiq etməklə, sosial təyinatlı bazar iqtisadiyyatının tənzimləmə mexanizmini, yəni əhalinin sosial problemlərinin kəskinləşməsinə qarşı xüsusi məhdudiyyətlər sistemi yaradılmasını nəzərdə tuturdu.

Ümumiyyətlə, iqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri problemləri tarixi səpkidə təhlil edilərkən sosial-iqtisadi proseslərin bazar və dövlət vasitəsilə birgə tənzimlənmə-

sinə əsaslanan Çin modeli, qarışıq iqtisadiyyata əsaslanan İsveçrə modeli, habelə özünün tənzimləmə xüsusiyyətləri ilə seçilən ABŞ, Yaponiya, Almaniya, Avstriya və s. modellərinin geniş yayıldığı aydın olur. Lakin qeyd etmək lazımdır ki, ayrı-ayrı ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin müxtəlif modelləri formalaşsa da, onların hamısında başlıca məqsəd cəmiyyətdə sosial-iqtisadi sabitliyi təmin etmək, ölkə daxilində və eləcə də dünyada dəyişkən ictimai-iqtisadi şəraitə uyğunlaşmaqdan ibarətdir.

Son illərdə məhsuldar qüvvələrin sürətli inkişafı sayəsində iqtisadi fəaliyyətin kəskin artan meyilləri, ölkələrin beynəlxalq daxili və xarici iqtisadi əlaqələrinin xarakteri, intensivliyi, iqtisadiyyatın sosial yönümünün güclənməsi və nəhayət, maliyyə bazarının iqtisadiyyatın başlıca ünsürünə çevrilməsi, ölkələrin iqtisadiyyatının güclü inteqrasiyası nəticəsində dünyada baş verən qlobal iqtisadi böhrana qarşı tədbirlər sisteminin həyata keçirilməsi sosial-iqtisadi proseslərin tənzimlənməsi və idarə olunmasında dövlətin rolunun artırılmasını obyektiv zərurətə çevirmişdir.

Son illərdə dünya iqtisadiyyatında baş verən qlobal iqtisadi maliyyə böhranı fövqəldövlətləri sarsıtmış, əsas makroiqtisadi göstəricilərin pisləşməsi ilə, o cümlədən ümumi daxili məhsulun və xarici ticarət dövriyyəsinin azalması, işsizliyin kütləvi xarakter alması, ciddi likvidlik çatışmazlığı kimi problemlərlə müşahidə olunmuşdur. Lakin dünya iqtisadiyyatında kəskin böhranın olmasına baxmayaraq, ölkəmizdə uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində əhəmiyyətli strateji valyuta ehtiyatlarının yaradılması, konservativ xarici borclanma, xarici maliyyə bazarlarından asılılığın minimuma endirilməsi, manatın sabitliyinin təmin edilməsi sayəsində qlobal iqtisadi böhran digər ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir. Həmçinin, böhranın respublika iqtisadiyyatına təsirini azaltmaqdan ötrü hökumət antiböhran proqramı hazırlamış və həyata keçirmişdir. Həmin proqramın konseptual əsasları Nazirlər Kabinetinin 2008-ci ilin yekunlarına həsr olunmuş 16 yanvar 2009-cu il tarixli iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aşağıdakı tezislər şəklində öz əksini tapmışdır:

- süni qiymət artımının qarşısını almaq məqsədilə istehlak bazarına nəzarətin gücləndirilməsi;
- antiinhisar fəaliyyətinin gücləndirilməsi və haqsız rəqabətin aradan qaldırılması;
- dövlət strukturlarının iqtisadi subyektlərə qanunsuz müdaxiləsinin qarşısının alınması;
- ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində təsirli tədbirlərin görülməsi;
- Azərbaycan hökumətinin xaricdə saxlanılan valyuta ehtiyatlarının bir hissəsini ölkənin ən etibarlı yerli banklarında yerləşdirməsi və həmin vəsaitin banklar vasitəsilə iqtisadiyyatın yalnız real sektoru əsas götürülməklə dövlətin prioritet hesab etdiyi sahələrə yönəldilməsi;

- müvafiq dövlət orqanları tərəfindən ölkəyə gətirilən maliyyə vəsaitinin idarə olunmasına nəzarət olunması, qərarların qəbul olunmasında iştirak edilməsi;

- dövlət investisiya proqramının həyata keçirilməsində prioritetlər üzrə qrafikin müəyyənləşdirilməsi, dövlət investisiya layihələrinin həyata keçirilməsi

zamanı qənaət rejiminə ciddi əməl edilməsi;

- büdcə vəsaitinin xərclənməsi üzərində nəzarətin artırılması;

- sahibkarlığın inkişafına yönəldilmiş güzəştli kreditlərin həcminin artırılması;

- kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi.

Prezidentin müəyyənləşdirdiyi antiböhran tədbirləri paketinə əsaslanaraq aparılmış siyasət nəticəsində makroiqtisadi sabitliyin qorunması, istehsalın səviyyəsinin saxlanılması, pul-kredit siyasətinin gücləndirilməsi, sosial problemlərin həlli, əhalinin aztəminatlı təbəqəsinin müdafiəsi, sahibkarların işgüzar fəallığının stimullaşdırılması istiqamətlərində zəruri işlər görülmüşdür. Qlobal iqtisadi böhranın fəsadları ölkə iqtisadiyyatına qismən sirayət etsə də, dünya iqtisadiyyatının bir hissəsi olan ölkəmiz bu böhranlı vəziyyətdən minimum itkilərlə çıxa bilmişdir. Həyata keçirilən qətiyyətli və səmərəli tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını nümayiş etdirmiş, qeyri-neft sektorlarında şaxələndirmə əsasında iqtisadi artım əldə edilmişdir.

Belə ki, 2009-cu ildə Azərbaycan Respublikasında ÜDM 9,3%, onun adambaşına düşən həcmi 7,9%, qeyri-neft sektoru isə 3,2% artmışdır. Orta aylıq əməkhaqqı 8,6% artaraq 298 manata, əmək pensiyalarının orta aylıq məbləği isə 100,4 manata çatdırılmışdır. Minimum aylıq əməkhaqqı və əmək pensiyalarının baza hissəsi 75 manat olmuşdur. Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7,4 milyard manat, o cümlədən regionlar üzrə 2,9 milyard manat investisiya yönəldilmiş, bu vəsaitlər hesabına infrastruktur təminatının daha da yaxşılaşdırılması və dünya standartlarına uyğunlaşdırılması ilə bağlı layihələr icra olunmuşdur.

Respublikamızda sahibkarlığın inkişafına dövlət dəstəyini həyata keçirən maliyyə qurumlarından biri Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondudur. Fondun vəsaitləri hesabına verilən güzəştli kreditlər Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın dəstəklənməsi, yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinə yönəldilir.

Bu məqsədlə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2009-cu ildə müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsinə 130,0

milyon manat vəsait ayrılmışdır. Həmin məbləğin 74 milyon manatı büdcə vəsaiti, 56 milyon manatı isə güzəştli kreditlərdən Fondun xəzinə hesabına daxil olmuş vəsaitlər (kredit və faiz məbləğləri) hesabına formalaşmışdır.

Sahibkarlığa Kömək Milli Fondu güzəştli kreditlərin sahibkarlıq subyektlərinə çatdırılması üçün 36 müvəkkil kredit təşkilatı, o cümlədən 31 bank, 1 bank olmayan kredit təşkilatı, 4 kredit ittifaqı ilə əməkdaşlıq edir. Azərbaycan Respublikası Mərkəzi Bankının təqdim etdiyi maliyyə-statistik göstəricilər əsasında mövcud qanunvericiliyə uyğun olaraq hər maliyyə ilinin əvvəlində Fondun vəsaitləri üzrə müvəkkil kredit təşkilatlarına limitlər müəyyən edilir və müvəkkil kredit təşkilatları onlara ayrılmış limit həddində sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsini həyata keçirirlər. Hal-hazırda müvəkkil kredit təşkilatlarının onların filial şəbəkələri ilə birlikdə sayı 536-a çatmışdır.

İl ərzində fond tərəfindən 1207, o cümlədən Bakı şəhəri üzrə 12 investisiya layihəsinin maliyyələşdirilməsi məqbul hesab edilmişdir. Maliyyələşdirilən investisiya layihələrinin tərkibində sənaye məhsullarının istehsalı 7,5%, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı 88,5%, turizm 0,4%, xidmət və infrastruktur layihələri 3,9%, KİV, nəqliyyat, poliqrafiya layihələri 0,3% təşkil etmişdir.

Göründüyü kimi, Sahibkarlığa Kömək Milli Fondu dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində yaxından iştirak etməklə, sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin verilməsi, dövlətin güzəştli kreditlərinə çıxış imkanlarının asanlaşdırılması üçün sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi sahəsində yeni yanaşmaların hazırlanması və tətbiqi, güzəştli kreditlərin verilmə mexanizminin və qanunvericilik bazasının möhkəmləndirilməsi, Fondun maddi-texniki bazasının möhkəmləndirilməsi, şəffaflığın təmin edilməsi, bu məqsədlə sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi, müasir texnologiyaların cəlb edilməsi ilə yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsalını, emalını nəzərdə tutan layihələrin, eləcə də bu sahələrin inkişafını stimullaşdıran infrastruktur layihələrinin maliyyələşdirilməsi, işgüzar əlaqələrinin inkişafı istiqamətində səmərəli fəaliyyət göstərmişdir.

Beləliklə, fikrimizi ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, cəmiyyətdə sosial-iqtisadi proseslərin tənzimlənməsi mürəkkəb, çoxşaxəli və eyni zamanda, ziddiyyətli bir prosesdir. O, hər bir ölkədə mövcud iqtisadi sistemin xarakterindən irəli gələn müxtəlif obyektiv və subyektiv amillərdən asılı olmaqla, bütünlükdə ictimai-iqtisadi problemlərin idarə olunması və tənzimlənməsində bazar mexanizmi ilə dövlətin iştirakının optimal nisbətinin müəyyənləşdirilməsini tələb edir. Həmçinin, mövcud dövrün reallıqları bir daha sübut etdi ki, bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi proseslərin idarə olunmasında və təşkilində müstəsna rol iqtisadiyyatın dövlət tənzimlənməsinə məxsusdur.

*Э.Ибрагимов*

## Пути стимулирования и необходимость государственного регулирования экономики

*Резюме*

Во все времена для обеспечения нормальной деятельности любой системы и экономического развития страны большая роль отводится государству. В связи с этим одной из главных задач государства является определение оптимального взаимного контакта государства и экономики, а также граней вмешательства государства в экономику. В статье исследованы эти вопросы и выдвинуты некоторые предложения.

*E.Ibrahimov*

## Ways of stimulation and necessity of regulation of economy the state

*Summary*

At all times for maintenance of normal activity of any system and economic development of the country the big role is taken away to the state. In this connection one of the state main tasks is definition of optimum mutual contact of the state and economy, and also to define sides of intervention of the state in economy. In article these questions are investigated and some offers are brought.

*Ədəbiyyat:*

6. 2009-cu ilin yekunlarına görə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclası) // “Azərbaycan” qəzeti, Bakı, 17 yanvar 2010-cu il.
7. Milli Məclisdə Nazirlər Kabinetinin hesabatı dinlənilmişdir. Baş nazir Artur Rasizadənin çıxışı // “Azərbaycan” qəzeti, Bakı, 17 mart 2010-cu il.
8. Azərbaycanın statistik göstəriciləri. – 2008. Bakı: 2009.
9. Məmmədli O., Hüseynov F. Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi. Bakı: 2006.
10. Novruzov N., Hüseynov X.Ə. Maliyyə. Bakı: 2007.

♦



**Rəşad HƏSƏNOV,**
*Qlazqo Univeristetinin (Böyük Britaniya Krallığı) magistrantı*

# Fillips əyrisi və Azərbaycan iqtisadiyyatı

***Bir neçə il əvvəl dünyanı vahiməyə salan iqtisadi böhran hələ tam sovuşmayıb. Hətta bəzi tanınmış iqtisadçılar Avropanı yeni və daha təhlükəli böhran gözlədiyini proqnozlaşdırırlar. Belə ki, Yunanıstan, Portuqaliya və İspaniyada baş verən proseslər bu ölkələr üçün əsas sınağın hələ qabaqda olduğunu göstərir. Təbii ki, bu hadisələr digər avrozona ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Bütün bu proseslər bir daha onu göstərir ki, dünya iqtisadiyyatı durmadan dəyişir, iqtisadi-siyasi konyuktura uyğun olaraq köhnə nəzəriyyələrə yeni baxışlar yaranır.***

Doğrudur, düzgün iqtisadi siyasətin aparılması nəticəsində Azərbaycan qlobal böhranın fəsadlarından qaça bilmiş və ölkə iqtisadiyyatı bu böhrandan çox az zərər çəkmişdir. Əksər dünya ölkələrinin böhrandan əziyyət çəkdiyi bir vaxtda Azərbaycan iqtisadiyyatı dinamik inkişafa nail olmuşdur.Lakin ayrı-ayrı iqtisadi göstəricilər arasında əlaqənin bütövlükdə iqtisadi proselərə ciddi təsir göstərdiyini nəzərə alsaq, tarixi təcrübəyə nəzər salmaq, bu təcrübənin Azərbaycan iqtisadiyyatına təsiri və ya əks-təsiri barədə fikir söyləmək faydalı olardı.

İşsizliklə inflyasiya arasında qarşılıqlı əlaqə iyirminci əsrin ən çox müqayisə olunan nəzəriyyələrindən biri olmuşdur.

1958-ci ildə Yeni Zelandiya iqtisadçısı professor Uilliam Fillips araşdırmaları nəticəsində Böyük Britaniya iqtisadiyyatında işsizlik və inflyasiya arasında nəzərəçarpan əlaqə olduğunu göstərmişdir [1]. O, 1861-ci ildən 1957-ci ilə qədər olan dövrdə ingilis iqtisadiyyatını təhlil edərək bu qənaətə gəlmişdir. XX əsrin 60-70-ci illərində bu nəzəriyyə çox məşhurluq qazanmış və Fillips əyrisi termin kimi tarixə düşmüşdür.

Qeyd edək ki, *Fillips əyrisi (Phillips curve)* – işsizlik səviyyəsi ilə inflyasiya tempi arasında tərs mütənasib əlaqə olduğunu göstərən əyridir.

Bu nəzəriyyə meydana çıxandan sonra tezliklə digər tanınmış iqtisadçılar da Fillips əyrisini ABŞ, Yeni Zelandiya və başqa ölkələrin iqtisadiyyatına tətbiq edərək, onun həqiqətə uyğun olduğunu sübut etmişlər. Əslində, Fillips inflyasiya dedikdə maaş inflyasiyasını nəzərdə tuturdu. Ondan 32 il əvvəl isə qiymət inflyasiyası barədə amerikan iqtisadçısı İrving Fişer yazmışdı. Sadəlik naminə, yazının qalan hissəsində biz qiymət inflyasiyasını

nəzərdən keçirəcəyik.

İlkin hesablamalara əsasən, işsizliyi 4% səviyyəsində saxlamaq istəyən dövlət (ümumiyyətlə) 3-4% inflyasiya ilə razılaşmalı idi. Odur ki, ilk vaxtlar bəzi makroiqtisadçılar bu nəzəriyyənin dövlətə inflyasiya və işsizlik arasında seçim etmək üçün imkan yaratdığını düşünürdü. Bundan başqa, bir çox iqtisadçılar daha da irəli gedərək, Fillips əyrisində işsizliyi məhsuldarlıq ilə əvəz etdilər. Onlar bu nəzəriyyəni yeni formaya salaraq "yüksək inflyasiya tempi yüksək məhsuldarlıqla müşaiət olunur" kimi fikirlər yürütməyə başladılar.

Xatırlayırsınızsa, 2007-ci ilin Qlobal İqtisadi böhranı zamanı bir çox iqtisadçılar 1929-33-cü ilin Böyük Depressiyasından analoqiyalar göstərirdilər. O vaxtın böyük alimi, öz nəzəriyyələri ilə böhrandan xilas olmaq üçün dövlətlərin üzərinə düşən mühüm rolu qeyd edən ingilis iqtisadçısı Con Maynard Keynsin ideyaları yenidən aktuallıq qazanmağa başladı. Halbuki, bir neçə onillik bundan əvvəl Milton Fridman və digər alimlər Keynsin nəzəriyyələrini təkzib edirdilər. Elə XX əsrin 60-cı illərdə aparılan tədqiqatlar Keynsin "iqtisadiyyatı tam məşğulluğa çatdırmaq" haqqında dediklərinin mümkünsüzlüyünü göstərmişdi. Belə ki, iqtisadiyyatda "tam məşğulluq" anlayışının dəqiq təyininin mümkün olmadığı üzə çıxmışdı. Ona görə də, Fillipsin kəşfi Keynsin bu təlimini yeni formaya saldı: əgər hazırkı məşğulluqdan gələn xeyir ona uyğun inflyasiya səviyyəsindən gələn ziyandan daha çoxdursa, o zaman həmin inflyasiya səviyyəsinə razılaşmaq olar. Beləliklə, inflyasiyaya işsizliyi aşağı səviyyədə saxlamağın "iqtisadi bədəli" kimi baxmağa başlandı. Bu baxışlara əsasən, aşağı səviyyədə inflyasiya yolverilən idi.

Lakin XX əsrin 70-ci illərindən etibarən bu nəzəriyyə təcrübədə özünü doğrultmamağa başladı. 2006-cı il iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Edmund Felps, Milton Fridman kimi böyük iqtisadçılar öz yazılarında Fillips nəzəriyyəsinin təcrübədə sırf təsadüfən təsdiqini tapdığını göstərdilər [2]. Onlar bu təsadüfü subyektlərin bazar gözləntiləri ilə bağlayırdılar. Beləliklə, Fridman dövlətin daha çox iqtisadiyyatın "təbii məşğulluq" səviyyəsinə çatması üçün çalışmalı olduğunu təklif etdi. Bu iqtisadçıların gəldiyi nəticə odur ki, aşağı inflyasiyaya razılaşaraq yüksək məşğulluğa nail olmaq son nəticədə effektsiz alınır. Əksinə, iqtisadiyyatda yüksək inflyasiya yüksək işsizliklə müşahidə olunur. Bu fenomen sonralar "staqflyasiya" adı aldı.

Fridmana əsasən, Fillipsin təklif etdiyi kimi müəyyən inflyasiya dərəcəsinə razılaşaraq işsizliyin aşağı saxlanmasına çalışan zaman bazar subyektləri artıq gözləntilərini Dövlətin elan etdiyi inflyasiyaya uyğun quracaqlar. Yəni, Dövlətin elan etdiyi inflyasiya dərəcəsi artıq subyektlərin gözləntilərinə daxil olacaq. Belə olan halda Dövlət bir neçə müddət sonra nə yüksək inflyasiyadan nə də aşağı məşğulluqdan qaça bilməyəcək. Odur ki,Fridmanın makroiqtisadi sabitliyin bərqərar olunması üçün göstərdiyi yol ölkədə pul kütləsinin sabit bir şəkildə, bazar gözləntilərinə uyğun inkişafına nail olmaqdır.

Fridmanın gəldiyi nəticələrdən biri budur

ki, Fillips əyrisi yalnız qısamüddətli perspektivdə özünü doğrulda bilər, uzunmüddətli perspektivdə isə bu nəzəriyyə işlək deyil. O fikrini belə əsaslandırır: Tutaq ki,monetar genişlənmə və ya hər hansı digər bir səbəbdən ölkədə qiymətlər və maaşlar 2% artır. Belə olan halda, hələ iqtisadi subyektlər elə hesab edəcəklər ki, onların real əmək haqqları artıb- çünki paralel baş verən qiymət artımından xəbərləri yoxdur. Bu səbəbdən onlar daha çox işləməyə və daha çox pul qazanmağa çalışacaqlar.Bu səbəbdən işçi təklifi artacaq. Digər tərəfdən, məhsullarının qiymətlərinin bahalaşdığını bilən şirkətlər də nəzərə alırlar ki, ödədikləri real əməkhaqqı əvvəlki perioda nisbətən daha azdır (Çünki qiymətlər qalxıb və indiki real əməkhaqqı daha az alıcılıq qabiliyyətinə malikdir). Odur ki, şirkətlər də daha çox işçi cəlb eləmək istəyəcəklər. Beleliklə, verilmiş inflyasiya dərəcəsində işsizlik ilk vaxtlar azalacaq. Bir müddət sonra, bazar iştirakçılarının inflyasiya gözləntiləri dəyişir və nəticədə Fillips əyrisi uzunmüddətli perspektivdə yenidən özünü doğrultmur. ABŞ-ın eks-prezidenti Abraham Linkoln dediyi kimi: “Müəyyən insanları hər zaman aldatmaq olar, hamını birlikdə bəzən aldatmaq olar, lakin hamını hər zaman aldatmaq mümkün deyil”. Son nəticədə gözləntilərə artmış qiymətləri daxil edən işçilər daha yüksək əməkhaqqı tələb edəcəklər ki, bu da son nəticədə əməyə olan tələb-təklifi əvvəlki vəziyyətinə qaytaracaq.

İllər boyu sınaqlardan keçirilən, daim müxtəlif interpretasiyalara məruz qalan bu nəzəriyyə Azərbaycanda necə, özünü doğruldubmu?

Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankın hesabatlarına əsasən, ölkəmizdə inflyasiyanın və işsizliyin qrafiklərinə nəzər salaq. Birinci qrafikindən göründüyü kimi, 2003-cü ildən bu yana ölkəmizdə işsizlik azalma istiqamətində gedir. Yeni açılan iş yerləri,

*Qrafik 1. Azərbaycanda işsizlik göstəricisi, faizlə*




*Mənbə: Dövlət Statistika Komitəsi*

*Qrafik 2. Azərbaycanda inflyasiya tempi*




*Mənbə: Dövlət Statistika Komitəsi*

əmək şəraitinin yaxşılaşdırılması yönündə görülən işlər nəticəsində işsizlik 2009-cu ildə 6%-ə qədər aşağı düşmüşdür.

İkinci qrafikdən ölkəmizdə İstehlak Qiymətləri İndeksinin (İQİ) dinamikasına nəzər salaq.

Ölkədə əhalinin nominal gəlirlərinin artmasına paralel inflyasiya da artmaqda davam etmişdir. Təbii ki, dünya bazarlarında mallara olan qiymət artımı dolayı və birbaşa yolla ölkəyə "inflyasiya idxalı" ilə nəticələnmişdir. Həmçinin, Mərkəzi Bankın "Pul siyasətinin

*Qrafik 3. Fillips əyrisi Azərbaycan üçün*




*Mənbə: Müəllifin araşdırması*

yerinə yetirilməsi haqqında hesabatında" qeyd olunduğu kimi, ölkədəki pul kütləsinin artımı inflyasiyaya birbaşa təsir edən amillərdən olmuşdur. Belə ki, hesabata əsasən son bir neçə ildə inflyasiyaya təsir edən amillər arasında xarici amillərlə yanaşı, nominal effektiv məzənnə və M1 pul kütləsi də böyük rol oynayır.

Bu iki qrafiki 3-cü qrafikdə birləşdirərək Azərbaycan üçün Fillips əyrisinin özünü doğruldub-doğrultmadığına nəzər salaq.

Göründüyü kimi, ölkəmizin son bir neçə illik təcrübəsində bu nəzəriyyə gözlənilir. Ümumi görüntüyə əsasən, aşağı inflyasiya dərəcəsi yüksək işsizliyə uyğun gəlir.

Belə hesab edirik ki, Azərbaycan iqtisadiyyatında Fillips əyrisinin nəzəriyyəyə uyğun olması sırf təsadüfi faktdır. Burada neft amilinin rolu çox böyükdür. Belə ki, neftdən gələn böyük gəlirlər və bunun nəticəsində ölkədə pul kütləsinin sürətlə artması inflyasiyanı bir müddət ikirəqəmli etmişdir. Eyni zamanda, bu pullar hesabına, xüsusən də, qeyri-neft sektorunda açılmış yeni iş yerləri, Dövlətin işsizliyin azaldılması uğrunda gördüyü işlər nəticəsində işsizlik azalmaqdadır. Düşünürük ki, Azərbaycanda "Holland sindromundan" qaçmaq üçün Dövlət tərəfindən görülən səylər nəticəsində yaxın gələcəkdə həm aşağı inflyasiyaya, həm də aşağı işsizliyə nail olmaq mümkündür.

Qarşımızdakı bir neçə ildə hökumətin atacağı iqtisadi addımlar çox həlledici olacaq. Fikrimizcə, bu periodda Mərkəzi Bank çox dar monetar siyasət həyata keçirməli, inflyasiya üzərində çox sərt nəzarət etməli, həmçinin milli valyutanın məzənnəsinə diqqət etməlidir. İstənilən halda maliyyə sektorunda nizam-intizam makroiqtisadi stabilliyin yaranmasında böyük rol oynayacaqdır.

### *Ədəbiyyat*


1. Uillim Fillips. "Böyük Britaniya iqtisadiyyatında 1861-1957-ci illərdə işsizlik və maaş inflyasiyası arasında qarşılıqlı əlaqə". Economica jurnalı. Noyabr, 1958. səhifə 283-299.
2. Milton Fridman. "Monetar siyasətin rolu". American Economic Review jurnalı , Mart, 1968 səh. 1-17.
3. Milton Fridman. "İnflyasiya və işsizlik". Journal of Political Economy. İyun, 1977 səh. 451-477.
4. Robert Lukas. "Məhsuldarlıq və inflyasiya arasında seçim üçün bir neçə beynəlxalq təcrübəyə baxış". American Economic Review jurnalı. İyun, 1973. səh. 326-334.


♦